# DEYİMLƏR



*Məhərrəm Şəmkirli*

## *Özümü görə bilmədim*

**Çoxdan idi ki, özümü görmürdüm. Bu səhər ürəyimdən aynada özümü görmək keçdi. Aynanın qabağına gəldim. Dedim görüm sirim- sifətim nə gündədir, belim- buxunum əyilməyib ki? Baxdım və özümü tanımadım. Dedim, ”Bu kimdir, gəlib girib aynanın içinə?” Bir balaca geri çəkildim. Bir xeyli özümü tanımadım. Sonra diqqətimi topladım və nəhayət özümü tanıdım. Aynadakı özüm idim. Öz- özümə: - İlahi, niyə mən bu günə düşmüşəm?!**

Bu vaxt içimdən bir səs gəldi: 30il qoltuqlarda yaşayan,gəlmələr tərəfindən öz ata- baba yurdundan qovulmuş qaçqın nə gündə olmalıdır ki?!

## *Oxşarlıq*

Ağacdan tökülən sapsarı yarpaqlara baxıram.Çoxsu saralmayıb hələ,elə bahar rəngindədir.Amma saplaqları budaqlardan bərk- bərk tutub qalmaq gücündə deyi. Budağından torpağa düşməlidir. Bir ağacın dibində dayanıb yarpaqların torpağa düşməyinə baxıram və fikirləşirəm: Yarpaqların ömrü insanların ömrünə necə bənzəyir. Doğulur,yaşayır və sonda həyatdan köçüb torpağa qarışır.

## *Balaca bir istək*

O, Allahdan başqaları kimi var- dövlət, ev- eşik, bahalı maşın istəmədi. Bapbalaca bir şey istədi. İstədiyinin adı ölüm idi. Bu istəyi özündən və dəfələrlə üzünü göyə tutub yalvardığı Allahdan başqa kimsə bilmirdi. Bilə də bilməzdi. Ona görə ki, yaşamağı nə qədər ağır olsa da, bir dəfə də olsa ölümü arzuladığını dilinə gətirməmişdi. Yaxşı bilirdi ki, bu sözü dilinə gətirsə, illərdi qulluğunda duran, qayğısına qalan, bir dəfə də olsun üzünü turşutmayan, narazılıq etməyən 20 illik ömür- gün yoldaşı eşitsə onu qınayacaq, şükür Allaha, sənin nəyin var ki, deyib saçlarını qarışdıracaq, üzünə güləcək.

Yox, deyəsən hər gün ürəyində, ”nə olar qadir Allah, mənə qəfil bir ölüm ver” çağrışını da Tanrı eşitmir. Eşitsəydi onun ölümə gedən yolunu bu qədər uzaqdan salmazdı.

## *Bezən oğul*

Oğul xəstələnib yorğan- döşəyə düşmüşdü. Ana oğlunun çarpayısından bir an ayrılmır, qayğısına qalır, onun tezliklə sağalıb ayağa durması üçün bütün vasitələrdən istifadə edirdi. ”Sənə gələn dərd mənə gəlsin ay bala” deyib, üzgözündən öprdü. Ananın şəfqəti, qayğısı ilə oğul teliklə sağalıb ayağa qalxdı.

Aradan uzun müddət keçmədi ki, indi də ana xəstələndi. Bu dəfə xəstəyə qulluq eləmək oğula düşdü. İlk günlər əlindən gələni eləməyə çalışan oğul bir neçə gündən sonra anasının yatdığı çarpayının baş ucunda durub: ”Ay arvad, hələ çox yatacaqsan? Axı mən öldüm, ev- eşiyə, toyuq- cücəyə baxmaqdan.”

Oğula gələn dərdi özünə götürən ananın qayğısını çəkə bilməyən oğullar var İlahi.

## *Deyillər*

Deyillər,səni qəbrimin üstünə gələn görüblər. Baş daşımdakı şəkilimin tozunu almısan, soyuq dodaqlarınla daşlaşmış üzümdən öpmüsən. Sonra da baş daşıma sarılıb göz yaşları tökmüsən. Doğrusu, bilmirəm hardan yadına düşüb qəbistanlığa getmək, şəkilimdən öpmək, baş daşıma sarılıb göz yaşı tökmək. Axı diriykən nə mənə sarıldın, nə məni öpdün. İndi birdən- birə hardan yarandı bu istək, bu sevgi?

Görənlər deyir, hətta qəbrimin üstünə tər-təzəcə güllər, çiçəklər də qoymusan. Bilmirəm bilirmisənmi, xəbərin varmı ki, yalançı nəvaziş, yalançı öpüş, yalançı göz yaşı soyuq məzarları isitmir?!



## *Belə yaşamaq olmaz*

**Günümü göy əskiyə bükdün. Gün- güzəran vermədin mənə. Əzablar,acılar yaşatdın mənə, ipə- sapa yatmadın, elə var- dövlət istədin, doymadı gözün. Nə sevgin oldu, nə də qılığın.**

**Bu formada müxtəlif xasiyyətli ömürlər bir yerdə yaşaya bilməzdi. Ayrılmağa qərar verdik. Ayrıldıq. Sən öz yolunla getdin, mən də öz yolumla. Uzun zamandır nə sən məni görürsən, nə də mən səni. Yox, yox, axırıncını düz demədim. Bilirsən niyə? Sən evimdən getmisən, amma yuxularımdan getməmisən. Hər gecə yuxularıma gəlirsən, eyni hikkə, eyni tələblə. Nə olar, insafın olsun! Qoy,heç olmasa bundan sonra insan kimi yaşayım.**

## *Gəlmədilər*

Bu il də gəlmədilər. Baharın ilk müşdəçilərini- qaranquşları deyirəm. Evimin eyvanı onların yeriydi. Haqsız- muzdsuz yuva qurub yaşayırdılar. Bala çıxarıb, bala böyüdürdülər. Mən də əlimdən gələn yaxşılığı edirdim, dən də, su da verirdim. Vaxt gələndə, havalar soyuyanda yenə gəldikləri kimi də uçub gedirdilər. Aramızda heç vaxt inciklik olmamışdı. Bəs nədən son iki ildə gəlmirdilər?

Bu haqda xeyli düşündüm və sualımın cavabını tapdım: Nə qədər təmas xəttindən gələn güllə səslərinin altında yaşamaq olar. Bəs mən anası ölmüş necə illərdir Vətəndən Vətəndəki təmas xəttindən atılan güllələrin altında yaşayıram?

## *Payız*

Duman ağır- ağır dərədən qalxıb qarşıdakı dağın başına kalağayı kimi bolanmaq, bir az dincəlib, sonra gəldiyi kimi də çıxıb getmək istəyirdi. Gizlənə- gizlənə çılpaq meşəliyə girdi. Payız meşədə tutar qoymamışdı. Küknar ağaclarından başqa bütün ağacları çılpaqlaşdırmışdı. Nə kolda- kosda, nə ağaclarda bir dənə də olsun yarpaq qalmamışdı. Məqsədi də aydın idi: çılpaq ağacları soyuq nəfəsilə soyutmaq, onlara bir daha nəyə qadir olduğunu göstərmək idi.

## *Bəlkə qayıtdın*

Çıxıb gedirsən. Dayan bir, fikirləş bir deyirəm. Nə məni eşidirsən, nə qəzəbini cilovlaya bilirsən. Hikkən, haytan səngimir, mənə qəzəbini, nifrətini bildirirsən. Dayanıb bir kəlmə sözümü eşitmirsən, dinləmirsən.

Deyirəm, birdən hər şeyi yerliyataqlı öyrənib, peşman olub geri qayıtmaq istəsən, ilk addımı evimizə tərəf necə atacaqsan?

## *Səsində gördüm üzünü*

Üzünü görməmiş səsini eşitdim. Səsinin ovsununa düşdüm, səsini sevdim. Sevdim dəlilər kimi. Birdən soruşarsan, üzümü görməmiş necə sevdin məni? Qoy deyim, sənin üzün elə səsinin içindəydi.

## *Susdum*

Ağaclara baxıram, çılpaq, yarpaqsız ağaclara. Payızın qənim kəsildiyi ağaclara. Bir ağacın quşqonmaz yerində tək bircə yarpaq qalıb. Payızın güclü küləyi, soyuq yağışı qopara bilməyib onu budağından. Bilmirəm bu yarpağa fədakarmı deyim, anasına bağlılıqmı deyim?

Bu yerdə yadıma zaman- zaman itirdiklərimiz torpaqlar düşdü. Nədən itirdiyimizi soruşmaq istədim, öz-özümdən. Fikirlərim çözələndi. Susdum.

## *İnsanlar və həyat*

**Həyatda duzlu, məzəli insanlar var. Onlar bizi güldürürlər, şənləndirirlər. Fikirlərimiz dağılır. Bir anlıq çiynimizdəki ağır yükü bir kanara qoyub tamam qayğısız oluruq. Bu insanlara təşəkkürümüzü bildiririk. Bəzən də, ağrılarımız, acılarımız da olur. Bu acıları, ağrıları da həyat yaradır bizə.**